# DAHA ÜSTÜN EV: SÖZÜN EVİ

## *Sabir Şirvanın “Söz ömrü” kitabı üzərində düşüncələr*



Əli Rza Xələfli

Ötən yay Sabir Şirvan Qarabağın işğaldan azad olunan kəndinə - Xələfliyə getmişdi. Özünün dediyinə görə cəngəlliklər basmış yolu, izi birtəhər keçib Şirvanlı bulağına çatmışdı. Dədə-baba evləri də elə Şirvanlı bulağına çatmamış, yolun üstündə idi. Yenə özünün dediyinə görə heç öz həyətlərinə də cəngəlliyi basıb keçə bilməmişdi. Qıraqdan baxa bilmişdi evlərinin yerinə.

Sabir Şirvanın atası məşhur dülgər idi: Əvəz Qaytaran oğlu. Çox evlər tikmişdi. 8 övladı (4 qız, 4 oğul) halal zəhməti ilə böyütmüşdü. Ailəni təndürüst saxlamaqla bahəm özünə də lap dədə-baba dili ilə desək, bir saray qurmuşdu. Bağı-bağatı, çağlayan suyu, gülü, gülzarı ilə birgə...

Sabir bürokratik maneələri birtəhər keçib kəndə gedə bilmişdi. Yəqin ki, qıraqdan-qırağa xaraba qalmış evlərini, viranə qalmış bağlarını da görmüşdü. Təsəvvür etmək heç çətin də deyil, Sabir o yerdə qıraqdan durub hansı hisslərlə diş-diş ağaran yurd yerlərinə baxmışdı. İllah da ki, şair olasan. Yanğılar içində közərə-közərə sözə çevrilə. Əmisi oğlu Qaytaranın Şirvanlı bulağının üstündə qara zurnada ifa etdiyi “Çoban-Bayatı”nı dinlədikcə onun qəlbindən hansı hisslərin keçdiyini təsəvvür etmək, bəlkə də axıracan təsəvvür etmək heç mümkün də deyil.

İnsanın yurdu (böyük anlamda vətəni) onun yaddaşıdır. Sabir də yaddaşının görüşünə getmişdi.

Yaddaş isə insanın varlığını, kimliyini göstərən ən ümdə keyfiyyətdir. Bəlkə də başqaları buna əlamət deyərdi, ancaq, məncə, məzmunun dəyəri yaddaşla ölçülürsə, onda yaddaş elə keyfiyyət anlamında qavranılmalıdır. Hər halda Sabir Şirvanı közərən yaddaş duyğuları çəkib aparmışdı yurda. Doğma kəndini, doğulub böyüdüyü yeri, yurdu tərənnüm edən şeir oxuyurdu. Bulaq onun zümzüməsinə qulaq kəsilmişdi, axı bulaq özü batmışdı. Bəlkə də bulaq özü də Sabirin şeirlə gətirdiyi yaddaşın gücünə yuxudan oyanacaq.

“Çoban-Bayatı” Yavər - Qaytaranın qara zurnasının qara nəfəsi ilə çağlayırdı. Mənə elə gəlirdi ki, baxdığım kiçik zamanla məhdudlaşan video-lentdə görünən mənzərənin hamısı ağlayırdı.

Yəqin ki, Sabir Şirvan xaraba qalmış yurdun necə abad olacağını, bu evin - onun doğulub-böyüdüyü yurdun təzədən ata yadigarı kimi Xələflisiz - Şirvanlısız böyüyən övladlarına necə qaytarılacağını da düşünürdü. Zənnimcə, indi mətləbə gəlmək olar.

Sabir artıq o evi tikib. “Söz ömrü” kitabı ilə... “Söz ömrü” kitabında oxuculara təqdim etdiyi “Söz ömrü” avtobioqrafik (memuar)romanı ilə...

Onsuz da Mədaini - bir vaxt həşəmətli Mədain sarayını zaman küləklərə sovursa da Xəqaninin məşhur əsəri ilə təzədən tikildi. Baxmayaraq ki, adı “Mədain xərabələri” kimi düşüncələrdə yaşamalı oldu. Sabir Şirvan “Söz ömrü” avtobioqrafik əsəri ilə dağılmış Xələflinin yaddaşlarda yaşaya biləcək gücdə obrazını özünün söz ömründə ruhundan keçirib varlığında ona təzədən don biçib və elə söz donunda da zamanımıza qaytarıb.

“Söz ömrü” kimi əsərlərin dəyəri çox yüksəkdir. Belə əsərlər yaddaşı oyatmaq sarıdan möcüzəvi təsir gücünə malikdir. Sabirin səhifə-səhifə sürətlə çevirdiyim vərəqlərə hopmuş duyğularını mənzərə-mənzərə gözlərimdən keçirirəm. Burada təkcə qaçqınlıq istirabları, didərginlik ağrı-acıları yoxdur, həm də qayğısız uşaqlıq illərinin insanlığa gəl-gəl deyən çağları da şairin nəsr dili ilə gəl-gəl deyir.

Açığı, boynuma alıram, səhifələri həyəcanla çevirirəm. Sabir ata yurdunu, doğulub-böyüdüyü elatın iç dünyasını yazır. Mən də həmin məqamların, həmin zamanın yaddaşımda çağlarına dönürəm. Əslində əsər oxucunun ruhunu səfərbər etmirsə, onun yaddaşını oyatmırsa, demək, müəllif gücsüz olub. Müəllif kotanı - xışı dərinindən işlədə bilməyib. Amma Sabirin rəvan, təmkinli, bəlkə bir qədər də sakit axan çay ləngəri ilə nəsrinin içincə yeriyən duyğuları sözlərinin cazibəsinə düşdükcə hiss edirəm. Və özüm də xaraba qalmış evimizin qabağınacan gedirəm. Qısa görüntülü video-yaddaşdan evimizin xarabalıqları arasında, lap elə mənim kitabxanamın içində bitmiş qoz ağacını, yemişəni təzədən gözlərimlə öpürəm.

Bəs əsər necə olur? Bəs bədii əsərin gücü hansı meyarla ölçülür?

Düşünürəm ki, Sabir qələmi götürəndə, yazını başlayanda, bəlkə heç, nə yazacağını da bilməyib, amma onu ağ kağız üzərində qaralan sətirlər karvan yoluna bənzər yaddaşın ən sərt keçilməzliklərindən ötürmək gücündə olub. Sabirin bu əsərdəki uğurunu şərtləndirən bir əsas keyfiyyət var; yaddaşa xəyanət etməmək, xatirələrinin içərisindən boy göstərən obrazlara səmimi münasibət...

Əsər, şübhəsiz, müəllifin böyük zəhməti bahasına başa gəlib. Deyə bilmərəm, bu əsər nə qədər vaxta, hansı müddətə yazılıb. Amma onu deyə bilərəm ki, Sabir bu əsəri başlayandan qurtarana kimi ondan ayrılmayıb. Sevinci də, kədəri də, hətta həyatının mənası da bu əsərin motivləri üzərində cəmlənib.

Əsər bir neçə janrın qovuşması, calağı, hətta bəzən mövzuların sərt dönəmləri ilə hədlənən ayrılıqlarla başa gəlib.

Yaddaş tələqini ilə yazılan əsərlərin əsas dəyərlərindən biri də nəsil, kök, soyağacına münasibətdir. Sabir Şirvan “Söz ömrü” əsərindənəsil ağacının mümkün köklərinə qədər gedir. Ancaq daha çox budaqları zamanın gərdişi ilə gələn küləklərdə sovrulmayan, tarixin yaddaşında iz qoyan adları, ünvanları da yazısı ilə yenidən dirildir.

Bir anlığa belə düşünürəm: İndi Xələfli yoxdur, ümid edirik gələcəkdə olacaq. Xələflinin böyük oymaqlarından biri - Şirvalı da yoxdur, inamımız var yenə olacaq. Axı həmin adamlar - o yeri-yurdu qurub-tikmiş, bizi o yerdə, yurdda böyütmüş insanlar daha yoxdur. Bax o zaman “Söz ömrü” kimi əsərlərin dəyəri öz gücünü göstərəcək. “Söz ömrü” əsəri Sabir Şirvanın “Eyvatlıdan Xələfliyədək” (Yusif Dirili ilə birgə) kitabından sonra gələcəyə ünvanlanmış çox dəyərli yazıçı məktubudur.

Şair Sabir Şirvanın “Söz ömrü” əsəri, mən bilən, onun ilk nəsr əsəridir. İlk olmasına baxmayaraq, zənnimcə, uğurlu əsəridir. Bütün yazıçılar üçün əsas meyar özünü yaza bilmək gücüdür. Bu gün ulu Nizaminin məşhur “Xəmsə”sində də tarixi taleyimiz üçün ən dəyərli məqamları onun özünü yazdığı hissələrdə görə bilirik. Nizami özünü yazdığı məqamlarda mənsub olduğu etnosun, vətənin, yurdun, tarixinə güzgü tutur. Sabir Şirvan da bu əsərində özünü yazdığı üçün tarixə şahidlik missiyası daşıyır. Yazıçı özünü yazdığı məqamda həmişə cəmiyyətdən daha yuxarıda dayanır. O, toplumu yaddaşın həqiqətlərinə doğru çağırır. Axı, özünü yazıb. Özü isə danıla bilməz. Tarixin övladıdır, zamanın yetirməsidir. Əsər necə böyüyürsə, sabir Şirvanın özünün mənəvi boy atımını da əsər boyu hiss edirik. Onun hansı kökdən gəldiyini, hansı boydan su içdiyini, tapındığı mənəvi dəyərlərin hansı meyarlara əsaslandığını öz həyatının təsviri ilə oxucusuna göstərə bilir və biz də elə onu bu yöndə görürük.

Sabir Şirvan şairdir, elə bu səbəbdən də avtobioqrafik romanın ayrı-ayrı hissələrində onun həyatının əsas rənglərinə çevrilmiş, varlığında iz buraxmış duyğuların poetik ifadəsini də yeri gəldikcə əsərdə görə bilirik. “Söz ömrü” əsərində təqdim olunan şeirlər yamaq təsiri bağışlamır, hansısa məqama əsaslanır. Hansısa toqquşan hisslərin, qarşılaşan təzadların arasından yaranmış kimi üzə çıxır.

Bir həqiqəti də etiraf etmək lazımdır; Sabir Şirvanın özünün həyatı heç də hamar olmayıb. Hər bir insana aid olan həyat təzadları onun da taleyindən yan keçməyib. Ancaq təəssüf ki, əsərdə həyatda yaşadığı konfliktlərin təzahürünü görmək olmur. Çox kiçik məqamlarda bunlar epizodik elementlər kimi fikiraltı sətirlərlə keçir. Bu barədə geniş danışmağa lüzum görmürəm. Bütün hallarda yazıçı həyatın konfliktlərini də heç olmasa öz həyatının timsalında (“timsal” sözünü bizim Xələflidə ən çox işlədən Sabir Şirvanın atası Əvəz Qaytaran oğlu idi) epizodik olsa belə, göstərməyə borcludur, çünki həyat heç birimiz üçün rəvan yol açmır. Bəzən qarşımıza çıxan maneələr həyatımızın axarını dəyişir, hətta bir çoxlarımızda axarın dəyişməsi faciələrimizlə sonuçlanır. Bunlar öz yerində. Bir də qayıdıram kitabın məziyyətinə çevrilən məqamlara.

Sabir Şirvanın “Söz ömrü” əsərinin kənd psixologiyasında, ilkinliyin mühitində insani dəyərlərə münasibət məsələsinə. Əsərdə çox maraqlı bir epizod var: “05.08.1961-ci il doğum tariximdir. Mən dünyaya gələndə əmim Rizvan adımı sənəddə Sabir yazdırıb. Ancaq evə gəlib bunu elan etdikdə narazılıqlar başlayıb. Kənddə Sabir adlı bir cavan oğlan rəhmətə gedibmiş. Sabirin bacısı isə qonşuluqda yaşayırmış. Ona görə də evdəkilər bildirib ki, o gəlin eşidə-eşidə həyət-bacada biz Sabir adını çağıra bilmərik. Adımı yazdıranda bunlar kişinin ağlına gəlməyib. Eyni zamanda ana tərəfdən qohumum, Mirzalı oğlu Abduləli atamla bir yerdə, dəmir yolunda işləyirdilər. Eşidəndə ki, mən doğulmuşam, atama gözaydınlığı verir və adımı Kamal qoymağı tövsiyə edir. Bu səbəbdən adımı Kamal deyə çağırıblar. Qeyd edim ki, 60 yaşımın həndəvərindəyəm, mənə bu gün də Kamal deyən xeyli həmkəndlilərim var. Bu adların hər ikisi mənim üçün doğmadır. Rəhmətlik Səltənət müəllimə deyərdi: oğul, sənin adlarının hər ikisi gözəldir”. Bu kiçik parçada iki məqam var. Birinci məqam odur ki, mənəvi tarazlığı, insanların bir-birinə sağlam münasibətini qoruyan ali humanizm keyfiyyəti... Sabir adlı gəncin vaxtsız ölümü (mən bilən, Sabir Həsən oğlu kəndimizdə hörmətli kişilərdən biri - Famil Həsənoğlunun qardaşı) təkcə doğmalarının yox, hər kəsin ağrısı, acısı olub. Elə bu səbəbdən də uşağı sabir adı ilə çağırmağı valideynləri insanlığa zidd keyfiyyət kimi biliblər. Əslində dağılmış dünya nizamını elə biz bu keyfiyyətləri bərpa etməklə qaytara bilərik. Adlardan söhbət düşmüşkən, Sabir atası Qaytaran oğludur, əmi oğlu Əlqəmə Qaytaranov familyası daşıyırdı. Bu adın haradan gəlməsi haqqında da çox düşünmüşəm. Nəhayət, bir mənbədə rast gəldim. Qaytaran (Qaytara) sən demə, Bakının ilkin adı olub (professor Süleyman Məmmədov). Özü də “ətirli çiçək” anlamında - “dəniz sahilində bitən çiçək”.

İkinci təqdim olunan parçada diqqəti çəkən ikinci məqam; Sabir adının kənd içində, ailədə, elat içində dəyişməsinə səbəbi izah etdik, amma hər halda axı Kamal adı da var. Sabir doğru deyir. Elə mən özüm də çox vaxt ona Kamal deyə müraciət edirəm. İnsanların adlarına münasibəti əslində hər kəsin özünün həyat meyarını müəyyən edir. Hətta “Karvan körpüdən keçir” kitabıma belə bir epiqraf da verməşdim: “İnsanın ən böyük ehtiramı öz adına olmalıdır”.

Mənə qalsa, Sabir Şirvan “Söz ömrü” əsəri ilə Kamal adının da mənəvi mühitindəki təsdiqini verib. Həyatın dolaylarından təmkinlə, ağılla keçməsi də onun Sabirliyinin təzahürüdür. Mən bu düşüncələri havadan yazmıram, “Söz ömrü” əsərinin gətirdiyi qənaətlərə əsaslanıram.

*(Davamı 9-cu səhifədə)*

# DAHA ÜSTÜN EV: SÖZÜN EVİ

## Sabir Şirvanın "Söz ömrü" kitabı üzərində düşüncələr

*(Əvvəli 8-ci səhifədə)*

Sabir Şirvan ixtisasca mühəndisdir - yol mühəndisi. Amma geniş ictimai fəaliyyətdən də kənarda deyil. Ardıcıl bədii yaradıcılıq fəaliyyəti ilə birgə Dirili Qurbani məclisinin Yusif Dirili ilə birgə yaradıcılarından və həmin məclisin yaşarlığını təmin edənlərdən biridir. Bu məclis artıq Azərbaycan mənəvi mühitində kifayət qədər görünür. Bu məclisin də şinelindən çoxlu istedadlar çıxıb.

Hər bir sənətkar özündən sonra gələn nəsillərin yaddaşında kifayət qədər iz qoymalıdır. Bu mənada Sabir də borclu qalmayıb. Və əsərdə biz Sabir Şirvanın Dirili Qurbani məclisi ilə bağlı fəaliyyətini də maraqlı epizodlarla görə bilirik.

Xələfli kifayət qədər böyük kənddir. Ən başlıcası, çox istedadlı gənclərin araya-ərsəyə gəlməsi üçün Xələfli yaddaşı əsaslı təsir göstərib. Ümumiyyətlə, Xələfliliyin mahiyyəti Sabir Şirvanın yaradıcılığında qədərincə görünür, xüsusilə "Söz ömrü" əsərində.

Qarabağın işğaldan azad olunması təkcə ərazi, maddi itkilərin bərpası məsələsi deyil, bu həm də milli qürur məsələsidir. Azərbaycanın dünyaya səpələnmiş övladları müasir dünya düzənində Qarabağın qara bir ləkə olduğunu mənəvi yara kimi varlıqlarında daşıyırdılar.

Qarabağ Azərbaycanın mənəvi mühitinin ən üstün göstəricisi idi. Bu mənada Qarabağın hər bir kəndi, hər bir şəhəri də yaddaş baxımından xüsusi tarixi əhəmiyyət kəsb edir. Bizim Xələfli də bu sıradan istisna deyil. Onu da deyim ki, Xələfli kəndindən boy göstərib dünyanın ayrı-ayrı şəhərlərində taleyinə yaşamaq qisməti düşmüş adamlar az deyil. Kiyevdə, Sankt-Peterburqda, Moskvada, Türkiyədə... Xələfli adını yaşatmaqla ev bina etmiş, soy kök əsası qoymuş xələflilər öz doğmaları ilə əlaqələrini bu gün də kəsmirlər. Onu da deyim ki, Amerikada iş adamı kimi fəaliyyət göstərən Xəqani İmanov mənim özümlə də sıx əlaqə saxlayır. Ancaq elm və sənət adamları Azərbaycanı, Qarabağı, bizim Cəbrayılı və, əlbəttə ki, həm də Xələfli kəndini təmsil edirsə, bu ikiqat baş ucalığıdır. Xələflidən ilk dəfə elmə ayaq açan Əhmədov Sahib Bəylər oğlu olub. Onun iki oğlu da dünyanın görkəmli riyaziyyat alimləri kimi ABŞ-ın nüfuzlu universitetlərində çalışmaqdadırlar. Azər və Anar Əhmədov qardaşları. Onlar Azərbaycana yüksək elmi nəaliyyətləri ilə şöhrət gətirdikləri kimi Xələfli adını da ucaldıblar. Xüsusilə Azər Əhmədov həm də böyük ədəbiyyat adamıdır. Ədəbiyyatda postmodern cərəyanın Amerikada və Avropada tanınan nümayəndələrindən biridir. Bunları niyə xatırlatdım? Onsuz da kənddə hamı bir-biriylə qohumdur, bir-birinə doğmadır. Amma Sabir Şirvanın bu ailə ilə daha sıx doğmalıq və qohumluq əlaqələri var. Hər dəfə onlar haqqında söhbət düşəndə digər xələflilərimiz kimi Sabir də doğma Xələflinin timsalı kimi Azər və Anar Əhmədov qardaşları ilə fəxr etdiyini bildirir.

Xələfli kəndinin kifayət qədər zəngin mənəvi mühiti görkəmli ziyalıların təbiətində özünü təsdiq etməkdədir.




Bu əsər haqqında gələcəkdə də yenidən söz açmaq olar, daha ətraflı danışmaq olar. Hələlik bu qədər.

Kitabın ikinci bölümü Sabir Şirvanın kimliyinə (həm yaradıcılıq, həm də şəxsiyyət baxımından) işıq tutan yazılardan ibarətdir. İkinci bölmədə ilk yazı Yusif Dirilinin (tarix üzrə fəlsəfə doktoru, tədqiqatçı-publisist) qeydlərindən ibarətdir. Ayrı-ayrı vaxtlarda onun Sabir Şirvan yaradıcılığına ədəbi-publisistik mövqedən münasibətini əks etdirir. Axı Yusif Dirili Sabir Şirvanı yaxşı tanıyır. Həmyaşıddırlar, həm istehsalata, həm də sözə eyni vaxtda gəliblər. Bu mənada Yusif Dirilinin yazdıqları Sabir Şirvanın yaradıcılığını gələcəkdə öyrənənlər üçün ən dəyərli mənbədir.

Sabir Şirvanın ədəbi taleyində yaxın və sıx yaradıcılıq əlaqələrində olduğu görkəmli sənət adamları ilə yanaşı tarix elmləri üzrə fəlsəfə doktoru, tədqiqatçı-publisist Yusif Dirilinin xüsusi rolu, əhəmiyyətli dərəcədə təsiri olmuşdur. Bunu özü də etiraf edir: "Sonda bildirmək istəyirəm ki, bir çox mövzular kimi, bu ktiabın da yazılıb ərsəyə gəlməsi ideyasının toxumlarını, hər zaman yaxın münasibətdə olduğum, tanınmış şair-jurnalist, gözəl insan Yusif Dirili beynimə səpib; - "Bu gündən sabaha etibar yoxdur, keçdiyin həyat yolunu qələmə al" - demişdi. Buna görə ona təşəkkürümü bildirirəm! Kitabın necə təsirə malik olduğunu, hansı dəyərə layiq tutulduğunu isə diqqətli oxucuların ixtiyarına buraxıram. Qərəzsiz oxucu rəyi ən dəqiq mövqe, ən həqiqi meyardır. Müəllifin bu haqqını heç kim onun əlində ala bilməz. Ömrün xoşbəxt çağlarında, asudə vaxtlarda yazıb-yaratmaq necə də gözəldir. Qoy Allah həmişə insanlarımıza sevincli günlər qismət etsin". Sabir Şirvan mənim doğulduğum kəndin, tayfanın, elatın, bizim Qarabağın yetirməsidir. Təbii ki, bu yöndə mən də onun yaradıclığı ilə bağlı sözümü deməliydim. Və kitabda sıra baxımından ikinci yazı mənim sabir Şirvan yaradıclığına münasibətimi bildirən qeydlərimdən ibarətdir: "Duruluq - poetik özünüifadənin mahiyyəti, yaxud Şirvan bulağının aynasında düşüncələr". Bu barədə, zənnimcə, danışmaq artıq olardı. Oxucu var, oxucu gözü var.

Növbəti yazı, Azərbaycan ədəbi-mənəvi mühitinin tanınmış simalarından biri, sözün həqiqi mənasında Qarabağın dərdlərini sözü, sənəti ilə üzə çəkən ustad şair İsmayıl İmanzadənindir.İsmayıl İmanzadə "Bir şair ömrünün söz közərtisi" adlı yazısında Sabir Şirvanın yaradıcılığını demək olar ki, duyğu-duyğu izləyir. Öz məqaləsində Sabir Şirvanın məqaləsindən geniş nümunələr verməklə onun poetik kimliyinə diqqəti yönəltməyə çalışır. Hər halda ustad şairin Sabir Şirvan haqqında qeydləri ədəbi salnaməmiz üçün çox dəyərlidir.

İsmayıl İmanzadə yazır: "Deyirlər peyğəmbərlərdən sonra Allaha ən yaxın olan zümrə şairlərdir. Əlbəttə, söhbət iddiaları özlərindən böyük olan, cızmaqaraları ilə elə bil insanların ədəbi zövqünü korlamağı özlərinə borc bilən və sosial şəbəkələrdə meydan sulayan qrafomanlardan yox, ədəbi aləmi zənginləşdirmək arzusunda olan əsl istedad sahiblərindən gedir. Məhz bu prizmadanyanaşanda, Sabir Şirvanın rəvan təbli-istedadlı söz adamı olduğunu elə bəri başdan əminlik hissiylə söyləyə bilərəm. Nə qədər təəccüblü olsa da , deyəcəm, - Sabir Şirvanı tanıyana qədər onun Şirvan mahalına məxsus qələm sahibi olduğunu zənn etmişəm. Ancaq sonradan bilmişəm ki, rayonumuzun ən gözəgəlimli kəndlərindən olan Xələflidə dünyaya göz açıb. Xələfli Cəbrayılın iri yaşayış məntəqələri ilə müqayisədə bir az kiçik görünsə də, öz yetirmələri ilə haqlı olaraq fəxr edə bilər. Ən azından görkəmli elm adamları və ədəbi aləmdə kifayət qədər tanınan Əli Rza Xələfli, Əjdər Yunus və Sabir Şirvan... kimi şairləri ilə". Tanınmış şair-publisist Malik Əhmədoğlu da Sabir Şirvan yaradıcılığını yaxşı bildiyi kimi onun özünə, şəxsi təbiətinə də dərindən bələddir. Ədəbi mühitdə həmişə onları bir yerdə görmək olar. Bu da imkan verir ki, uzun illərin qələm dostu kimi bir-birinin yaradıcılığını, sənətini qədərincə qiymətləndirə bilsinlər. Malik Əhmədoğlu Sabir Şirvan haqqında yazır: "Sabir Şirvan yaradıcılığında nəsr əsərlərinin, xüsusilə, publisistikanın olması məni çox sevindirdi, həm də maraqlı gəldi. Doğrusu, şairin nəsrə bu qədər önəm verəcəyi mənim ağlıma gəlməzdi. Onun Jurnalistlər Birliyinin üzvü, şair-publisist, Dirili Qurbani Məclisinin rəhbəri Yusif Dirilinin həmmüəllifliyi ilə yazıb çap etdirdikləri "Eyvatlıdan Xələfliyədək" kitabı böyük uğurlara imza atmış oldu. Sabir Şirvanın bu kitabı həqiqətən gözəl bir nəsr əsəridir desək, yanılmarıq. Az vaxtda bu kitab özünə xeyli sayda oxucu rəğbəti qazandırdı, çoxlarının sevincinə səbəb oldu. Məncə, bu kitab müəlliflərin nəsillərinin salnaməsini ortaya qoyduğu üçün qiymətli və önəmli kitabdır. Necə əsrlər keçəcək, lakin bu kitab yeni nəsillər üçün keçmişlə gələcək arasında körpü rolunu oynayacaq. Əvəzsiz zəhmətin məhsulu olan bu kitabları yazan əziz dostuma uğurlar arzulayıram! Sabir Şirvanın yaradıcılığı özündən sonra gələn nəsillər üçün sanki bir bünövrə, təməl rolunu oynayır desəm, yanılmaram. Bundan sonra qələmi daha şeirlərə həyat versin. Hər zaman bizi uğurları ilə sevindirəcəyi günlərdə görüşək. Sözünün günəşi daima işıqlı olsun. Heç zaman buludlar arxasında qalmasın...".

Yaralı Qarabağımızın taleyini yazan sənətkarlarımızdan biri də Şövkət Zərin Horovludur. O da Sabir Şirvanın yaradıcılığına biganə qalmayıb. Onu "ürəyinin gözü ilə görən şair" adlandırır və bununla Sabir Şirvanın poetik kimliyinə oxucu üçün pəncərə açır.

Filoloq, Əməkdar müəllim Rəhim Rəhimov həm söz duyumu, həm də pedaqoji əxlaqı ilə xüsusi nüfuza malik ziyalılarımızdandır. Onun da Sabir Şirvan haqqında yazması əslində Sabir Şirvanın həm şəxsiyyət, həm də sənətkar kimi təbiətinə təsdiqdir. Rəhim müəllim "Könlüm keçir Qarabağdan" adlı qeydləri ilə Sabir Şirvanın yaradıcılığının təbii qaynaqlarını tədqiq edir. Onun sənətkar kimi formalaşmasında həyata istinadını təsdiqləyir.

Nəriman Mahmud həm yaradıcılığı, həm də ictimai fəaliyyəti və jurnalistlik prinsipiallığı ilə fərqlənən ziyalıdır. Nəsri və publisistikası ilə ədəbi mühitimizdə kifayət qədər yeri var. Onun da Sabir Şirvan yaradıcılığına münasibət bildirən yazısı, zənnimcə, oxucuların marağına səbəb olacaq. Professor Əli Zalov öz qeydlərini "Sevməyən könüllər bərbad görünür" adlandırır. Elə yazının adı da göstərir ki, yurdu, vətəni, insanları, həyatı sevməsən mənəvi mühitin xarabalıqlara bənzəyər. Və müəllif Sabir Şirvanın yaradıcılığını bu yöndə dəyərləndirir.

Kitabda tanınmış şair Yasin Xəlilin, folklorşnüas-tədqiqatçı Şakir Albalıyevin, şair-publisist Eluca Atalının, nasir-publisist Qorxmaz Abdullanın, yazıçı-publisist Fariz Çobanoğlunun, şair Sənəm Səbayelin, yazıçı-publisist-Hidayət Səfərlinin yazıları maraqla oxunur. Tanınmış şairlər Malik Əhmədoğlunun, Ənvər Şıxların, Sofu Bilalın, Əhməd Fərhadın, Zahid Qaracallının şeirləri Sabirin poetik portretini müəlliflərin görmə bucağı altında işıqlandıra bilir.

Onu da qeyd edim ki, şair Malik Əhmədoğlu həm də kitabın məsləhətçisidir. Sabirin mənəvi mühitinin nizamda qalmasında digər dostları ilə birgə onun da xüsusi payı var.

Ayrı-ayrı yazılardan, şeirlərdən misallar da gətirmək olardı. Amma kitab var, oxucu var. Əlavə sözə lüzum görmürəm. Necə deyərlər, at suyu görür.

XX əsrin sonunda ictimai quruluşun, siyasi sistemin dəyişməsi çox kəskin kataqlizmlər yaratdı. Xüsusilə bu fonda Qarabağın işğalı Azərbaycan xalqının taleyi üçün çox faciəli oldu.

Bu faciənin ağrılarını uzun zaman xalqımız nəsil-nəsil yaşayacaq. Bu ağrıların unudulması üçün hələ çox zamanlar lazım olacaq. Hər halda tezliklə unudulmaması üçün zamana münasibəti, tarixin gerçəkliklərini göstərən əsərlərin yazılmasına çox böyük ehtiyac var. Çünki belə əsərlər yaddaşın yaşarlığını təmin edir.

Zənnimcə, Sabir Şirvanın "Söz ömrü" əsəri (və kitabı) bu mənəvi tələblərə - yaddaşın yaşarlılığı üçün vacib olan tələblərə qədərincə cavab verir.

*07.01.2022*